# AZƏRBAYCAN DİLİ

FƏNNİ ÜZRƏ ELEKTRON DƏRS VƏSAİTİ

# IV.Sintaksis

## 23. Cümlə

# Cümlə

Bitmiş fikir ifadə edən bir sözə və ya bir neçə sözün birləşməsinə cümlə deyilir.

Bir sözdən ibarət olan cümlə: ***Payızdır. Tələbədir.***

İki sözdən ibarət olan cümlə: ***Hava soyuqdur. Dərs maraqlıdır.***

Üç və daha artıq sözdən ibarət cümlə: ***Dərsləri vaxtında oxumaq lazımdır.***

# Cümlənin əsas xüsusiyyətləri

## Məna cəhəti

Bitmiş fikir ifadə etməsi

## Qrammatik cəhəti

a) Qrammatik cəhətdən formalaşmış xəbəri var. (şəkilçinin köməyi ilə) Yaxşıdır. Bahadır.

b) Cümlə intonasiyası var.

c) Modallığı var. (müəyyən münasibət bildirməsi)

# IV.Sintaksis

## 24. Cümlənin məqsəd və intonasiyaya görə növləri

# Cümlənin məqsəd və intonasiyaya görə növləri

- Nəqli cümlə
- Sual cümləsi
- Əmr cümləsi
- Nida cümləsi

Eyni quruluşda olan, eyni sözlərdən əmələ gələn cümləni intonasiyanın köməyi ilə həm nəqli, həm sual cümləsi kimi işlətmək olar.

***Dərsi oxuyursan.*** ***Dərsi oxuyursan?***

# IV.Sintaksis

## 25. Nəqli cümlə

# Nəqli cümlə

***Nəqli cümlələr*** bir hadisə, əşya, əlamət və s. Haqqında məlumat vermək məqsədi ilə işlədilir.
Adi: intonasiya ilə tələffüz olunur.
Sözlərin qrammatik sırası daha çox gözlənilir.

# IV.Sintaksis

## 26. Əmr cümləsi

# Əmr cümləsi

***Əmr cümləsi*** əmr, istək, arzu, xahiş, öyüd, məsləhət və s. Kimi mənalar ifadə edir. Əmr cümləsinin xəbəri felin əmr şəkli ilə ifadə olunur.

***Gün o gün olsun ki, qurtarsın dava!***

# IV.Sintaksis

27. Nida cümləsi

# Nida cümləsi

Yüksək hiss- həyacanla tələffüz edilən cümlələrə ***nida cümləsi*** deyilir. Xüsusi forması yoxdur. Nəqli, sual cümlələri həyacanlı intonasiya ilə deyiləndə nida cümləsinə çevrilir.

Əmələgəlmə yolları

Intonasiya vasitəsilə:
***Yol verin mənə!***

Nidaların köməyi ilə:
***Ah, nə gözəl gündür!***